# المختصر المفيد للمسلم (للجمعية)

Müsəlman üçün faydalı qısa məlumat

Bu kitab, İslam dininin əsaslarını qısa və dolğun bir üslubda əhatə edir. Burada oxuculara düzgün ibadətin əsaslarını və Allaha, Onun mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə və qədərə iman etməyin mənalarını izah edir.

Kitab İslam nemətini və Allahı, Onun sifətlərini və gözəl adlarını tanımağın əhəmiyyətini bəyan etməklə başlayır. Daha sonra İslamın beş əsasından və imanın rükünlərindən (sütünlərindən) söz açır. Həmçinin "ehsan" anlayışını və onun mömininin həyatındakı təsirini izah edir.

Bu kitab, iki vəhy qaynağı olan Quran və Sünnəyə istinad etməklə fərqlənir. Bu isə onu müsəlmanlara, dinlərinin əsaslarını sadə şəkildə öyrətmək üçün mühüm bir mənbəyə çevirir.

## Müsəlman üçün faydalı qısa məlumat

Mərhəmətli və Rəhmli Alla----hın adı ilə

## Müqəddimə

Həmd aləmlərin Rəbbi Allaha məxsusdur! Peyğəmbərlərin və elçilərin ən şərəflisi Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə salavat və salam olsun!

Daha sonra:

Allahın insana olan ən böyük nemətlərindən biri, ona İslam dinini bəxş etməsi, bu dində sabitqədəm olmağa və onun hökmləri və şəriətləri ilə əməl etməyə müvəffəq etməsidir. Bu kitabda müsəlman,

Uca Rəbbini, Onun böyük İslam dininin əsas prinsiplərini (sütunları) və Peyğəmbəri Muhəmmədi, sallallahu aleyhi və səlləm, daha yaxşı tanımağa, həmçinin Uca Allaha elm və bəsirət üzərində ibadət etməyə kömək edəcək əsasları qısa və aydın bir üslubda öyrənir, beləliklə də bu ona, Dinini düzgün şəkildə yaşamağa kömək edir.

## İnsanların yaradılmasının hikməti

Uca Allah bizi böyük bir hikmət üçün yaratdı. Bu hikmət, heç bir şəriki olmayan Uca Allaha ibadət etməkdir. Necə ki, Uca Allah buyurur:

﴿وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنْسَ إِلَّا لِيَعْبُدُونِ﴾

"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım". (az-Zəriyət surəsi, ayə 56). Yəni: Heç bir şəriki olmayan Uca Allahı ibadətdə təkləşdirsinlər. Bu dünyada bizim bütün əməllərimiz və məqsədlərimiz bu böyük məqsədin ətrafında dövr edir. Uca Allah buyurur:

﴿أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لا تُرْجَعُونَ * فَتَعَالَى اللَّهُ الْمَلِكُ الْحَقُّ لا إِلَهَ إِلا هُوَ رَبُّ الْعَرْشِ الْكَرِيمِ﴾

"Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz (heç vaxt) Bizə qaytarılmayacaqsınız?

Haqq Hökmdar olan Allah (hər şeydən) ucadır! Ondan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. O, şanlı Ərşin Rəbbidir)". (Muminun 23 surəsi, ayələr 115-116).

## Mənim rəbbim Allahdır

Uca Allah buyurur:

﴿ يَا أَيُّهَا النَّاسُ اعْبُدُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

"Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə Ondan qorxasınız". (Bəqərə 2 surəsi, ayə 21).

Uca Allah buyurur:

﴿ هُوَ اللَّهُ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ﴾

"O, Özündən başqa heç bir haqq məbud olmayan Allahdır". (Həşr 59 surəsi, ayə 22).

Uca Allah buyurur:

﴿ لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَهُوَ السَّمِيعُ الْبَصِيرُ﴾

"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir". (Şura 42 surəsi, ayə 11).

Allah mənim və hər bir şeyin Rəbbidir, hər şeyin sahibi, yaradanı, ruzi verəni və idarə edənidir.

İbadəti yalnız O, haqq edir. Ondan başqa heç bir Rəbb və (ibadətə layiq olan) heç bir ilah yoxdur.

Uca Allahın Özü üçün və Peyğəmbərinin, sallallahu aleyhi va səlləm, də Onun üçün isbat etdiyi, kamillik və gözəllikdə ən ali məqama çatmış, ən gözəl Adları və ən uca Sifətləri vardır. Onun heç bir bənzəri yoxdur. O, eşidəndir, görəndir.

**Uca Allahın ən gözəl adlarından bəziləri aşağıdakılardır:**

ər-Razzəq, ər-Rahmən, əl-Qadir, əl-Məlik, əs-Səmi, əs-Sələm, əl-Bəsir, əl-Vəkil, əl-Xaliq, əl-Lətif, əl-Kəfi, əl-Ğafur.

ər-Razzaq. Yəni: Qulların qəlblərinin və bədənlərinin yaşamı üçün zəruri olan ruziləri Öz öhdəsinə götürən.

ər-Rahmən. yəni: hər şeyi əhatə edən, geniş və böyük mərhəmət sahibi.

əl-Qadir. yəni: Heç bir acizlik və yorğunluq üz verməyən, kamil qüdrət sahibi.

əl-Məlik. Yəni: O, əzəmət, hökmranlıq və idarə etmə kimi sifətlərlə vəsflənmişdir. O, hər bir şeyin sahibidir və hər bir şeyi idarə edib, yoluna qoyandır.

əs-Səmi. Yəni: Gizli və aşkarda olan bütün səsləri, qullarının dualarını və Ona yönələn yalvarışlarını eşidən.

əs-Sələm: Hər bir nöqsan, qüsur və eyib sifətlərdən uzaq olan.

əl-Bəsir: Gözü ən xırda və kiçik hər bir şeyi görən, hər bir şeyi ən yaxşı şəkildə idrak edən, hər bir şeydən bilgisi olan və hər bir şeyin daxilindən xəbərdar olan.

əl-Vəkil: Yaratdıqlarının ruzisinə təminat verən, onların işlərini yoluna qoyan, dostlarını

(övliyalarını) himayəsinə götürən, onların işlərini asanlaşdıran və ehtiyaclarını ödəyən.

əl-Xaliq: Hər şeyi bənzəri olmayan bir şəkildə yaradan, ixtira edən.

əl-Lətif: Qullarına qarşı səxavətli olan, onlara rəhm edən və dilədiklərini verən.

əl-Kəfi: Qullarının bütün ehtiyaclarını ödəməyə kifayət edən, Öz köməyilə onları başqasının yardımından və onlara möhtac olmaqdan qoruyan.

əl-Ğafur: Qullarını, günahlarının şərrindən qoruyan və günahlarına görə onları cəzalandırmayan.

## Peyğəmbərim Muhəmməddir, sallallahu aleyhi va səlləm.

Uca Allah buyurur:

﴿لَقَدْ جَاءَكُمْ رَسُولٌ مِنْ أَنْفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُمْ بِالْمُؤْمِنِينَ رَءُوفٌ رَحِيمٌ﴾

"Sizə özünüzdən elə bir elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir" (Tövbə 9 surəsi, ayə 128).

Uca Allah buyurur:

﴿وَمَا أَرْسَلْنَاكَ إِلا رَحْمَةً لِلْعَالَمِينَ﴾

"Biz səni ancaq aləmlərə rəhmət olaraq göndərdik" (Ənbiya 21 surəsi, ayə 107).

## Muhəmməd, sallallahu aleyhi va səlləm, bəxş edilmiş rəhmətdir.

O, Muhəmməd ibn Abdullah ibn Abdulmuttalib ibn Həşimdir. Həşim - "Qureyş" qəbiləsindəndir. Qureyş qəbiləsi isə Ərəb millətindəndir.

Anası: Əminə bint Vəhb, süd anası isə Həlimə əs-Sə’diyyə olmuşdur. Peyğəmbər, sallallahu aleyhi va səlləm, on bir qadınla evlənmiş və vəfat etdikdə onların doqquzu sağ idi.

Peyğəmbərin, sallallahu aleyhi va səlləm, yeddi övladı olmuşdur. Üç oğlan və dörd qız. Oğlanları: Qasim, Abdullah və İbrahim idi. Qızları isə: Zeynəb, Ruqəyyə, Ümm Külsüm və Fatimədir.

Peyğəmbərin, sallallahu aleyhi va səlləm, əmrlərinə itaət etmək, verdiyi xəbərləri təsdiqləmək, qadağan edib çəkindirdiklərindən uzaq durmaq və Allaha yalnız onun gətirdiyi şəriətlə ibadət etmək vacibdir.

Onun və ondan öncəki bütün peyğəmbərlərin şəriəti, tək olan və heç bir şəriki olmayan Uca Allaha ibadət etməyə dəvət etməkdir. Uca Allah buyurur:

﴿ وَمَا أَرْسَلْنَا مِنْ قَبْلِكَ مِنْ رَسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَهَ إِلَّا أَنَا فَاعْبُدُونِ﴾

"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: “Məndən başqa heç bir haqq məbud yoxdur, elə isə yalnız Mənə ibadət edin!”– deyə vəhy etməyək". (Ənbiya 21 surəsi, ayə 25).

O, sallallahu aleyhi va səlləm, Uca Allahın buyurduğu kimi, peyğəmbərlərin və elçilərin sonuncusudur.

﴿مَا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِنْ رِجَالِكُمْ وَلَكِنْ رَسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا﴾

"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir". (Əhzab 33 surəsi, ayə 6).

Uca Allah onu bütün insanlara İslam dini ilə göndərmişdir. Uca Allah bu haqqda belə buyurur:

﴿وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِلنَّاسِ بَشِيرًا وَنَذِيرًا وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ﴾

"Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən (bir peyğəmbər) olaraq göndərdik. Lakin insanların çoxu (bunu) bilməz". (Səba 34 surəsi, ayə 28).

Onun, sallallahu aleyhi va səlləm, hər bir müsəlman üzərində böyük haqqları vardır. Bunlardan bəziləri aşağıdakılardır:

1- Onun peyğəmbərliyinə, doğruluğuna, gətirdiyi əzəmətli şəriətin səhv və xətalardan qorunmuş olmasına iman etmək, ona itaət etmək və ona tabe olmaq. Uca Allah buyurur:

﴿وَمَا يَنْطِقُ عَنِ الْهَوَى * إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى﴾

"O, havadan (istədiyini) danışmaz.

Bu (Quran), ona nazil edilən bir vəhydir". (Nəcm 53 surəsi, ayələr 3-4).

2- Peyğəmbəri, sallallahu aleyhi və səlləm, sevməyin vacibliyi və bu sevginin, öz canımızın, övladımızın və bütün insanların sevgisindən üstün tutulması. Bu sevginin tələbi, Peyğəmbərin, sallallahu aleyhi va səlləm, yoluna müvafiq olmaq, onun əmrlərinə itaət etmək və qadağan edib çəkindirdiklərindən uzaq durmaqdır.

3- Peyğəmbərə, səllallahu aleyhi va səlləm, hörmət etməyin, dəstək verməyin, uca tutmağın və ona böyük ehtiram göstərməyin vacibliyi.

4- Ona, səllallahu aleyhi va səlləm, salavat gətirmək. Bu, Peyğəmbəri, sallallahu aleyhi va səlləm, tərifləmək, Allahdan, onun, sallallahu aleyhi va səlləm, adını ucaltmasını, onun hörmətini və şərəfini daha da artırmasını istəməkdir. Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

(من صلى عليّ صلاة صلى الله عليه بها عشرا)

"Kim mənə bir salavat gətirsə, Allah ona on salavat verər (onun uzərinə endirər; ən yüksək məclisdə onlara tərif edər; yaxud rəhm edər)". Hədisi Müslim rəvayət etmişdir.

5- Peyğəmbəri, sallallahu aleyhi va səlləm, həddindən artıq şişirtməkdən və həmçinin onu, Allahın ona bəxş etdiyi dərəcədən daha yüksək bir məqama qaldırmaqdan çəkinmək. Çünki Peyğəmbər, sallallahu aleyhi va səlləm, bundan

şiddətli bir şəkildə çəkindirmiş və belə buyurmuşdur:

(لا تطروني، كما أطرت النصارى ابن مريم، فإنما أنا عبده، فقولوا عبد الله، ورسوله) رواه البخاري.

"Nasranilər Məryəm oğlunu şişirtdikləri kimi, siz də məni şişirtməyin! Mən yalnız Allahın quluyam. Elə isə (mənə): “Allahın qulu və rəsulu!” – deyin". Hədisi Buxari rəvayət etmişdir (3445).

**Muhəmməd peyğəmbərin (sallallahu aleyhi va səlləm) sifətlərindən bəziləri aşağıdakılardır:**

Doğruluq, mərhəmət, yumşaqlıq, səbr, şücaət, səxavət, gözəl əxlaq, ədalət, təvazökarlıq, bağışlamaq və s.

## Qurani-Kərim Rəbbimin kəlamıdır

Uca Allah buyurur:

﴿ يا أيها الناس قد جاءكم برهان من ربكم وأنزلنا إليكم نورًا مبيناً﴾

"Ey insanlar! Rəb-bi-niz-dən sizə bir dəlil gəldi və Biz sizə aydın bir nur (Quran) na-zil etdik". (Nisa 4 surəsi, ayə 174).

Qurani-Kərim Uca Allahın həqiqətən danışdığı, insanları zülmətlərdən nura çıxartmaq və onları doğru yola yönəltmək üçün Peyğəmbəri Muhəmmədə (sallallahu aleyhi va səlləm)

nazil etdiyi kəlamıdır. Kim Quranı oxuyarsa, böyük bir savab qazanar. Kim onun hidayəti ilə əməl edərsə, doğru yola yönələr. Abdullah bin Məsud, Allah ondan razı olsun, Allah Rəsulunun,

sallallahu aleyhi va səlləm, belə dediyini rəvayət etmişdir:

(مَنْ قَرَأَ حَرْفًا مِنْ كِتَابِ اللَّهِ فَلَهُ بِهِ حَسَنَةٌ، وَالحَسَنَةُ بِعَشْرِ أَمْثَالِهَا، لَا أَقُولُ ﴿ الم﴾ حَرْفٌ، وَلَكِنْ أَلِفٌ حَرْفٌ، وَلَامٌ حَرْفٌ، وَمِيمٌ حَرْفٌ)

"Kim Allahın kitabından bir hərf oxuyarsa, onun üçün bir həsənət (savab) vardır. Hər bir həsənət üçün isə on misli savab vardır. Mən: «Əlif, Ləm, Mim» - bir hərfdir demirəm. Lakin «Əlif» bir hərf, «Ləm» bir hərf və «Mim» bir hərfdir". Hədisi Tirmizi rəvayət etmişdir (2910).

Uca Allah onu (Quranı) dəyişilməkdən və təhrifdən qorumuş və onu Qiyamət gününə qədər əbədi qalan bir ayə (yəni: ilahi nişanə) etmişdir. Uca Allah buyurur:

﴿ إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ﴾

"Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və Biz də onu qoruyacağıq". (Hicr 15 surəsi, ayə 9). Quranın naqis olduğunu və ya təhrif edildiyini iddia edən hər bir kəs, Allahı və elçisini, sallallahu aleyhi va səlləm, yalanlamış və İslam dinindən çıxmış olar.

Qurani-Kərim, ilahi məqsədlər, əxlaqi və mənəvi məsələlər artıq olmaqla əvvəlki müqəddəs kitablarda olan mövzuları əhatə edir. Və əvvəlki kitablarda bəyan olunan haqqı təsdiqləyir. Bu zamanda Qurani-Kərimdən başqa, Uca Allah tərəfindən göndərilən, ona itaət edilməsi, hörmət göstərilməsi, qiraəti ilə ibadət edilməsi və əməl olunması vacib olan heç bir kitab yoxdur.

# Mənim dinim İslamdır

Din üç mərtəbədən ibarətdir: İslam, İman və İhsan.

## Birinci mərtəbə: İslam

İslam: Yalnız Allaha ibadət etməklə Ona təslim olmaq, itaətlə Ona boyun əymək, Uca Allaha şərik qoşmaqdan və Ona şərik qoşan insanlardan uzaq olmaqdır.

**İslamın rukunları (əsasları)**

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə demişdir:

(بُنِيَ الإِسْلاَمُ عَلَى خَمْسٍ، شَهَادَةِ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ، وَإِقَامِ الصَّلاَةِ، وَإِيتَاءِ الزَّكَاةِ، وَصَوْمِ رَمَضَانَ، وَحَجِّ الْبَيْتِ)

"İslam dini beş əsas üzərində bina edilmişdir: Allahdan başqa haqq ilahın olmadığına və Muhəmmədin Allahın Rəsulu olduğuna şahidlik etmək, namaz qılmaq, zəkət vermək, Ramazan orucunu tutmaq və Allahın evini həcc etmək". Hədisi Buxari və Müslim rəvayət etmişdir.

İslamın rukunları hər bir müsəlmana vacib olan ibadətlərdir. İnsanın İslamı yalnız bu ibadətlərin vacibliyinə etiqad edib və onları yerinə yetirməklə səhih ola bilər. Çünki İslam dini bu rükunların üzərində bina edilmişdir. Elə buna görə də İslamın rukunları (əsasları) adlandırılmışdır.

Bu rükunlar aşağıdakılardır:

**Birinci rükun: Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət vermək.**

Uca Allah buyurur:

﴿ فَاعْلَمْ أَنَّهُ لَا إِلَهَ إِلَّا اللَّهُ﴾

"Bil ki, Allahdan başqa (ibadətə layiq olan) heç bir haqq məbud yoxdur". (Muhəmməd 47 surəsi, ayə 19).

Uca Allah buyurur:

﴿ لَقَدْ جَاءكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم بِالْمُؤْمِنِينَ رَؤُوفٌ رَّحِيمٌ﴾

"Sizə özünüzdən elə bir elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir". (Tövbə 9 surəsi, ayə 128).

"Lə iləhə illə-Llah" - şəhadət kəlməsinin mənası: "Allah-dan başqa ibadətə layiq haqq məbud yoxdur" - deməkdir.

"Muhəmmədən Rasulullah" - şəhadət kəlməsinin mənası isə: Muhəmməd Peyğəmbərin, sallallahu aleyhi va səlləm, əmr etdiklərinə itaət etmək, xəbər verdiklərini təsdiqləmək, qadağan edib çəkindirdiklərndən uzaq durmaq və Uca Allaha yalnız onun gətirdiyi şəriət üzərində ibadət etmək.

**İkinci rükun: Namaz qılmaq.**

Uca Allah buyurur:

﴿ وَأَقِيمُوا الصَّلَاةَ﴾

"Namaz qılın". (Bəqərə 2 surəsi, ayə 110).

Namaz, Uca Allahın şəriətinə müvafiq və Rəsulu Muhəmmədin, sallallahu aleyhi va səlləm, bizə öyrətdiyi şəkildə yerinə yetirilməlidir.

**Üçüncü rükun: Zəkat vermək.**

Uca Allah buyurur:

﴿وَآتُوا الزَّكَاةَ﴾

"Zəkat verin". (Bəqərə 2 surəsi, ayə 110).

Uca Allah zəkatı, müsəlman kimsənin imanının doğruluğunu imtahan etmək, Rəbbinin ona bəxş etdiyi var-dövlət nemətinə görə Ona şükr etmək və kasıblara, ehtiyacı olanlara kömək etmək məqsədilə fərz etmişdir.

Zəkat vermək, zəkatı layiq olan insanlara verməklə olur.

Zəkat, malın bəlli bir miqdara çatması ilə vacib olan bir haqdır. Zəkat, Uca Allahın Qurani-Kərimdə qeyd etdiyi səkkiz sinif insanlara verilir. Bunlar arasında fəqirlər və miskinlər də vardır.

Zəkatın verilməsində, rəhmət və şəfqət, müsəlmanın əxlaqının və malının təmizlənməsi, fəqir və miskinlərin könüllərini razı salmaq, müsəlman cəmiyyətinin fərdləri arasında sevgi və qardaşlıq bağlarının gücləndirilməsi vardır. Saleh müsəlman zəkatını könül xoşluğu ilə, digərlərini sevindirdiyi üçün sevinərək verir.

Malın zəkatının miqdarı, qızıl, gümüş, kağız pullar və qazanc məqsədilə alqı-satqı üçün

hazırlanan ticarət mallarının qiyməti müəyyən məbləğə çatdıqda və bu məbləğin üzərindən bir il keçdikdə - 2.5 faizidir.

Həmçinin zəkat, müəyyən sayda mal-qaraya (yəni dəvə, inək və qoyun) sahib olanlar əgər heyvanlarını yemləmədən onlar ilin çox hissəsində otlaqlardan yeyərlərsə, o kəslərə də vacibdir.

Həmçinin, zəkat yerdən çıxan şeylərdə də vacib olur, məsələn: cahiliyyət dövründən qalmış dəfn edilmiş xəzinələr, eləcə də müəyyən miqdara çatdıqda dənli bitkilər, meyvə və mədən məhsulları kimi.

**Dördüncü rükun: Ramazan ayı oruc tutmaq.**

Uca Allah buyurur:

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, bəlkə (Allahdan) qorxasınız". (Bəqərə 2 surəsi, ayə 183).

Ramazan ayı, hicri təqvimlə ilin doqquzuncu ayı olub, müsləmanların nəzdində əzəmətli olan bir aydır. Bu ayın, ilin digər ayları arasında xüsusi bir yeri vardır. Bu ayın hamısını  oruç tutmaq İslamın beş şərtindən biridir.

Ramazan orucu, mübarək Ramazan ayı günlərində dan yeri ağarandan (sübh namazı girəndən) - gün batana qədər yemək, içmək, cinsi

əlaqə və digər orucu pozan şeylərdən çəkinməklə Uca Allaha edilən ibadətdir.

**Beşinci rükun: Allahın Haram evini (Kəbəni) həcc etmək.**

Uca Allah buyurur:

﴿وَلِلَّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا﴾

"Yoluna gücü çatan hər kəsin (müqəddəs) Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır". (Əli İmran surəsi, ayə 97).

Həcc, getməyə gücü çatan insana ömründə bir dəfə vacib edilmişdir. Həcc: müəyyən ibadətləri - müəyyən bir vaxtda yerinə yetirmək üçün Məkkədə yerləşən Kəbə evinə və müqəddəs məkanlara (Ərafaya, Müzdəlifəyə və Minaya) getməkdir. Peyğəmbər, sallallahu aleyhi va səlləm, və ondan öncəki peyğəmbərlər də həcc etmişdir. Uca Allah, İbrahimə, aleyhi-ssələm, insanları həccə çağırmağı əmr etmişdir. Uca Allah Qurani-Kərimdə bu barədə belə buyurmuşdur:

﴿وَأَذِّنْ فِي النَّاسِ بِالْحَجِّ يَأْتُوكَ رِجَالًا وَعَلَى كُلِّ ضَامِرٍ يَأْتِينَ مِنْ كُلِّ فَجٍّ عَمِيقٍ﴾

"İnsanlar arasında həcci elan et ki, onlar sənin yanına piyada və ya hər bir uzaq yoldan gələn yorğun dəvələr üstündə gəlsinlər". (Həcc 22 surəsi, ayə 27).

## İkinci mərtəbə: İman

İman: Allahın və Rəsulunun inanmağı əmr etdiyi bütün şeyləri iqrar etmək, qəti şəkildə təsdiq etmək

və tam şəkildə etiraf (qəbul) etməkdir, həm zahirən, həm də batinən tabe olmaqdır. İman, qəlbin təsdiqi və onun qəlb və bədən əməllərini əhatə edən inancıdır. Bu, dinin bütün əmr və qadağalarına riayət etməyi əhatə edir. İman itaət ilə artır, günah ilə azalır.

**İmanın rükunları**

Peyğəmbər, sallallahu aleyhi va səlləm, iman haqqında soruşulduqda o, belə cavab verdi:

(أنْ تؤمنَ باللهِ وملائكتِهِ وكتبِهِ ورسلِهِ واليومِ الآخرِ وتؤمنَ بالقدرِ خيرهِ وشرهِ).

"İman, sənin Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə, axirət gününə, və qədərin xeyrinə və şərrinə iman etməyindir".[1]

İmanın rükunları hər bir müsəlmana vacib olan qəlbi ibadətlərdir. İnsanın İslamı yalnız onlara inanmaqla və onların tələblərinə əməl etməklə düzgün ola bilər. Elə buna görə də "imanın rükunları" olaraq adlandırılmışdır. İmanın rükunları ilə İslamın rükunları arasındakı fərq: İslamın rükunları, şəhadət kəliməsini söyləmək, namaz qılmaq, zəkat vermək kimi əzalarla icra edilən zahiri əməllərdir. İmanın rükunları isə Allaha, onun mələklərinə, kitablarına və rəsullarına iman etmək kimi insanın qəlbi ilə yerinə yetirdiyi qəlbi əməllərdir.

[1] Hədisi Müslim rəvayət etmişdir.

## Birinci rükun: Allaha iman

Uca Allah buyurur:

﴿ إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ آمَنُوا بِاللَّهِ﴾

"Möminlər ancaq Allaha iman gətirən kimsələrdir". (Nur 24 surəsi, ayə 62).

Biz Allahın varlığına inanırıq və Onun Rübubiyyətində (Rəbliyində), Uluhiyyətində (ibadətin yalnız Ona edilməsində), həmçinin Ad və Sifətlərində təkliyini qəbul edirik. Allaha iman aşağıdakıları əhatə edir:

- Uca və Pak olan Allahın mövcudluğuna iman etmək.

- Uca və Pak olan Allahın rübubiyyətinə iman etmək. Yəni: Onun, hər bir şeyin sahibi, yaradanı, ruzi verəni və işlərini idarə edəni olduğuna iman etmək.

- Uca, Pak və heç bir şəriki olmayan Allahın uluhiyyətinə iman etmək. Yəni: namaz qılmaq, dua etmək, nəzir vermək, qurban kəsmək, yardım diləmək, sığınıb qorunmaq və s. bu kimi ibadətin bütün növlərinə yalnız Onun layiq olduğuna iman etmək.

- Uca və Pak olan Allahın gözəl adlarına və ali sifətlərinə iman etmək. Yəni: Uca Allah, Özü üçün və peyğəmbəri Muhəmməd, sallallahu aleyhi va səlləm, Onun üçün isbat etdiyi ən uca ad və sifətləri isbat etmək və həmçinin, Uca Allahın Özündən və peyğəmbəri Muhəmmədin, sallallahu aleyhi va

sələm, Ondan inkar etdiyi ad və sifətləri inkar etmək, Uca Allahın ad və sifətlərinin kamilliyin və gözəlliyin ən yüksək zirvəsinə çatdığına, Onun heç bir bənzəri olmadığına və Onun Eşidən və Görən olduğuna iman etmək.

**İkinci rükun: Mələklərə iman.**

Uca Allah buyurur:

﴿الْحَمْدُ لِلَّهِ فَاطِرِ السَّمَاوَاتِ وَالْأَرْضِ جَاعِلِ الْمَلَائِكَةِ رُسُلًا أُولِي أَجْنِحَةٍ مَثْنَى وَثُلَاثَ وَرُبَاعَ يَزِيدُ فِي الْخَلْقِ مَا يَشَاءُ إِنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

"Həmd, göyləri və yeri yaradan, mələkləri iki, üç və dördqanadlı elçilər edən Allaha məxsusdur! O, yaratdıqlarından istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir". (Fatir 35 surəsi, ayə 1).

Biz iman edirik ki, mələklər qeyb aləmindəndir və onlar Allahın qullarıdır. Allah onları nurdan yaratmış və onları Özünə itaət edən, qarşısında boyun əyən etmişdir.

Mələklər əzəmətli məxluqlardır. Onların gücünü və sayını Uca Allahdan başqa heç kəs bilməz. Onların hər birinin Uca Allahın onlara məxsus etdiyi xüsusiyyətləri, adları və vəzifələri vardır. Bu mələklərdən biri də, vəhyi Uca Allahdan elçilərinə çatdırmaqla müvəkkəl olan Cəbraildir, aleyhis-sələm.

**Üçüncü rükun: Kitablara iman.**

Uca Allah buyurur:

﴿قُولُوا آمَنَّا بِاللَّهِ وَمَا أُنْزِلَ إِلَيْنَا وَمَا أُنْزِلَ إِلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَاقَ وَيَعْقُوبَ وَالْأَسْبَاطِ وَمَا أُوتِيَ مُوسَى وَعِيسَى وَمَا أُوتِيَ النَّبِيُّونَ مِنْ رَبِّهِمْ لَا نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِنْهُمْ وَنَحْنُ لَهُ مُسْلِمُونَ﴾

Deyin: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə nazil olanlara, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların heç birini digərindən fərqləndirmirik. Biz yalnız Ona təslim olanlarıq!”. (Bəqərə 2 surəsi, ayə 136).

Biz Uca Allahın rəsullarına, aləmlər üçün bir hüccət, əməl edənlər üçün isə bir yol göstərici olaraq kitablar nazil etdiyinə iman edirik.

Rəsullar həmin kitablar vasitəsilə insanlara hikməti öyrədir və onları günahlardan təmizləyirlər.

Uca Allah, peyğəmbəri Muhəmmədi, sallallahu aleyhi va səlləm, bütün insanlara peyğəmbər olaraq göndərməklə, onun şəriəti ilə əvvəlki şəriətlərin hökmünü nəsx etmişdir. Qurani-Kərimi isə digər səmavi kitablar üzərində hökmran və onları nəsx edən bir Kitab etmişdir. Uca Allah, Qurani-Kərimi hər cür dəyişiklik və təhrifdən qorumağı Öz öhdəsinə götürmüşdür. Uca Allah bu barədə belə buyurur:

﴿إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ﴾

"Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və Biz də onu qoruyacağıq". (Hicr 15 surəsi, ayə 9). Çünki

Qurani-Kərim, Uca Allahın bəşəriyyətə göndərdiyi sonuncu kitabdır, peyğəmbəri Muhəmməd, sallallahu aleyhi va səlləm, isə rəsulların sonuncusudur. İslam dini isə, Uca Allahın Qiyamətə qədər insanlar üçün razı qaldığı yeganə dindir. Uca Allah bu barədə belə buyurur:

﴿ إِنَّ الدِّينَ عِنْدَ اللَّهِ الْإِسْلَامُ﴾

"Həqiqətən, Allah yanında (haqq) din, İslamdır!". (Əli İmran 3 surəsi, ayə 19).

Uca Allahın öz kitabında zikr etdiyi səmavi kitablar bunlardır:

Qurani-Kərim: Uca Allah onu peyğəmbəri Muhəmmədə, sallallahu aleyhi va səlləm, nazil etmişdir.

Tövrat: Uca Allah onu peyğəmbəri Musaya, aleyhis-sələm, nazil etmişdir.

İncil: Uca Allah onu peyğəmbəri İsaya, aleyhis-sələm, nazil etmişdir.

Zəbur: Uca Allah onu peyğəmbəri Davuda, aleyhis-sələm, nazil etmişdir.

İbrahimin səhifələri: Uca Allah onu peyğəmbəri İbrahimə, aleyhis-sələm, nazil etmişdir.

**Dördüncü rükun: Elçilərə iman.**

Uca Allah buyurur:

﴿ وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ﴾

"Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”– (deyə) elçi göndərdik". (Nəhl 16 surəsi, ayə 36).

Biz Uca Allahın, qullarını yalnız heç bir şəriki olmayan Allaha ibadət etməyə və Ondan başqasına ibadət edilənləri inkar etməyə çağırmaları üçün - elçilər göndərdiyinə iman edirik.

Biz onların hamısının bəşər övladı, kişilər, Allahın itaətkar qulları, doğru danışan, doğruluqları təsdiqlənmiş, təqvalı, etibarlı, doğru yola yönəldən və özləri də həmin doğru yol üzərində olan kimsələr olduğuna iman edirik. Həmçinin etiqad edirik ki, Uca Allah onları doğruluqlarına dəlalət edən ayələrlə (möcüzələrlə) dəstəkləmiş, onlar da Allahın onlara göndərdiyi bütün risalətləri insanlara tam şəkildə təbliğ etmişlər. Onların hamısı açıq-aşkar haqq və aydın hidayət üzərində olmuşlar.

Peyğəmbərlərin birincisindən sonuncusuna qədər hamısının dəvətləri dinin əsas təməli olan Uca Allahı ibadətdə təkləşdirmək və Ona heç bir şeyi şərik qoşmamaq üzərində ittifaq etmişdir.

**Beşinci rükun: Axirət gününə iman.**

Uca Allah buyurur:

﴿ اللَّهُ لَا إِلَٰهَ إِلَّا هُوَ لَيَجْمَعَنَّكُمْ إِلَىٰ يَوْمِ الْقِيَامَةِ لَا رَيْبَ فِيهِ وَمَنْ أَصْدَقُ مِنَ اللَّهِ حَدِيثًا﴾

"Özündən başqa ilah olmayan Allah, (baş verəcəyinə) şübhə edilməyən Qiyamət günü sizi mütləq (bir yerə) toplayacaqdır. (Verdiyi) xəbərdə Allahdan daha doğru (söyləyən) kim ola bilər?". (Nisa 4 surəsi, ayə 87).

Biz axirət gününə inanırıq. Bu, Qiyamət günüdür və ondan sonra heç bir başqa gün olmayacaqdır. Biz Uca Rəbbimizin müqəddəs Kitabında xəbər verdiyi və ya peyğəmbərimiz Muhəmmədin, sallallahu aleyhi va səlləm, hədislərində axirətlə bağlı bizə bildirdiyi bütün xəbərlərə iman edirik. Bunlara insanın vəfatı, öldükdən sonra dirilməsi, insanların məhşər yerinə toplanması, şəfaətin olması, əməllərin tərəzidə çəkilməsi, hesabın olması, Cənnətin və Cəhənnəmin mövcudluğu və digər axirət hadisələri daxildir.

**Altıncı rükun: Qədərin xeyrinə və şərrinə iman.**

Uca Allah buyurur:

﴿ إِنَّا كُلَّ شَيْءٍ خَلَقْنَاهُ بِقَدَرٍ﴾

"Biz hər şeyi (əzəldən təqdir etdiyimiz) bir qədər ilə yaratdıq". (Qəmər 54 surəsi, ayə 49).

Biz qədərin xeyrinə və şərrinə iman gətiririk. Qədər, Uca Allahın əzəli elmi və hikmətinin tələbinə uyğun olaraq məxluqatın taleyini əvvəlcədən müəyyən etməsidir. Bu dünyada məxluqatlara baş verən bütün hadisələrin, heç bir şəriki olmayan Uca Allahın elmi, qüdrəti və idarəsi ilə gerçəkləşdiyinə inanırıq. Həmçinin bu qədərlərin insan yaradılmamışdan əvvəl yazıldığına etiqad edirik. Bununla yanaşı, insanın istək və iradəyə sahib olduğunu, öz əməllərini həqiqətən özü etdiyini qəbul edirik. Lakin bütün bunların da Allahın elmi,

iradəsi və istəyi çərçivəsində baş verdiyinə inanırıq.

Qədərə iman dörd mərtəbə üzərində bina edilmişdir. Bunlar aşağıdakılardır:

Birincisi: Allahın hər şeyi əhatə edən, kamil elminə iman etmək.

İkincisi: Qiyamət gününə qədər baş verəcək hər bir şeyin Allah tərəfindən yazıldığına iman etmək.

Üçüncüsü: Allahın keçərli iradəsinə və tam qüdrətinə, istədiyi şeyin oduğuna, istəmədiyi şeyin isə olmadığına iman etmək.

Dördüncüsü: Allahın, hər bir şeyin yaradanı olduğuna, yaratmaqda Onun heç bir şəriki olmadığına iman etmək.

## Üçüncü mərtəbə: İhsan

İhsan: Sənin, Allaha, Onu görürmüş kimi ibadət etməyindir. Sən Onu görməsəndə, O, səni görür. Uca Allah buyurur:

﴿ إِنَّ اللَّهَ مَعَ الَّذِينَ اتَّقَوْا وَالَّذِينَ هُمْ مُحْسِنُونَ﴾

"Həqiqətən də, Allah Ondan qorxanlar və yaxşı işlər görənlərlədir". (Nəhl 16 surəsi, ayə 128).

## Təharət (səri təmizlik)

Uca Allah buyurur:

﴿ إِنَّ اللَّهَ يُحِبُّ التَّوَّابِينَ وَيُحِبُّ الْمُتَطَهِّرِينَ﴾

"Şübhəsiz ki, Allah tövbə edənləri və pak olanları sevər". (Bəqərə 2 surəsi, ayə 222).

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə demişdir:

(مَن تَوَضَّأَ نَحْوَ وُضُوئِي هذا، ثُمَّ صَلَّى رَكْعَتَيْنِ لا يُحَدِّثُ فِيهِما نَفْسَهُ، غَفَرَ اللَّهُ له ما تَقَدَّمَ مِن ذَنْبِه)

"Kim mənim bu dəstəmazım kimi dəstəmaz alarsa, sonra iki rükət namaz qılıb, o namazda nəfsi ilə (öz-özünə) danışmasa, Allah onun keçmiş günahlarını bağışlayar". Hədisi Buxari rəvayət etmişdir.

Namazın əzəmətli bir ibadət olduğuna dəlalət edən amillərdən biri də, Uca Allahın, namazdan əvvəl təharəti (təmizliyi) əmr etməsi və onu namazın düzgünlüyü (səhih olması) üçün şərt etməsidir. Təharət, namazın açarıdır, onun fəzilətini dərk etmək, insanın qəlbini namazı vaxtında əda etməyə təşviq edir. Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

(الطُّهُورُ شَطْرُ الإيمانِ، والْحَمْدُ لِلَّهِ تَمْلأُ المِيزانَ، وسُبْحانَ اللهِ والْحَمْدُ لِلَّهِ تَمْلَآنِ -أَوْ تَمْلأُ- ما بيْنَ السَّمَواتِ والأرْضِ، والصَّلاةُ نُورٌ، والصَّدَقَةُ بُرْهانٌ، والصَّبْرُ ضِياءٌ، والْقُرْآنُ حُجَّةٌ لَكَ، أوْ عَلَيْكَ، كُلُّ النَّاسِ يَغْدُو فَبايِعٌ نَفْسَهُ فَمُعْتِقُها، أوْ مُوبِقُها)

"Təmizlik imanın yarısıdır. "Əlhəmdu-li-Lləh" zikri tərəzini doldurur. "Subhənallah və əlhəmdulilləh" sözləri isə yerlər və göylərin arasını doldurur. Namaz nurdur, sədəqə burhandır (dəlildir), səbr isə işıqdır. Quran ya sənin leyhinə ya da əleyhinə hüccətdir. Hər kəs sabahlayaraq öz nəfsini satar, kimisi (Allaha itaət etməklə Cəhənnəm əzabından)

onu azad edər, kimisi isə (şeytana tabe olmaqla) onu həlak edər". Hədisi Müslim rəvayət etmişdir.

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

(من توضأ فأحسن الوضوء خرجت خطاياه من جسده حتَّى تَخْرُجَ مِنْ تحتِ أَظفارِهِ)

"Kim dəstəmaz alıb onu düzgün (gözəl) şəkildə yerinə yetirərsə, günahları bədənindən çıxar, hətta dırnaqlarının altından belə çıxar". Hədisi Müslim rəvayət etmişdir.

Beləliklə, qul dəstəmaz almaqla həm hissi baxımdan təmizlənmiş, həm də bu ibadəti yalnız Allahın razılığı üçün və Peyğəmbərin, sallallahu aleyhi va səlləm, sünnəsinə uyğun şəkildə yerinə yetirməklə mənəvi olaraq təmizlənmiş bir halda Rəbbinə yönəlmiş olar.

Dəstəmazın vacib olduğu hallar:

1- Fərz və ya nafilə olmasından asılı olmayaraq, hər bir namazı qılarkən.

2- Kəbənin ətrafında təvaf edərkən.

3- Mushafa (yəni: Qurani-Kərimin nüsxəsinə) toxunarkən.

Tahur (təmizləyici) su ilə dəstəmaz və qüsl alıram:

Tahur (təmizləyici) su: Bu göydən nazil olan və ya yerdən çıxan, yaradılış halında olduğu kimi qalan və: rəngi, dadı və ya qoxusu suyun təmizləyici

xüsusiyyətini aradan qaldıran hər hansısa bir şeylə dəyişməyən sudur.

**Dəstəmaz**

Birinci addım: Niyyət etmək. Niyyətin yeri qəlbdir. Niyyətin mənası isə: insanın hər hansı bir ibadəti Allaha yaxınlaşmaq məqsədi ilə etməyə qəlbində qəti qərar verməsidir.

İkinci addım: “Bismilləh” (Allahın adı ilə) deyirəm.

Üçüncü addım: Əlləri üç dəfə yumaq.

Dördüncü addım: "Mədməda" etmək.

Mədməda: suyu ağıza alıb, orada dövr etdirdikdən sonra ağızdan çıxarmaqdır.

Beşinci addım: Üç dəfə "istinşaq" sonra "istinsar" etmək. İstinşaq etmək. Yəni: suyu nəfəs vasitəsilə burnun ən dərin hissəsinə qədər çəkməkdir.

"İstinsar": Suyu buruna çəkdikdən sonra oradakı bəlğəm və s. şeyləri nəfəs vasitəsilə burundan ifraz etməkdir.

Altıncı addım: Üzü üç dəfə yumaq.

Üzün həddi (hüdudu):

Üz: Başqası ilə qarşı-qarşıya gəldikdə üzümüzün görünən hissəsidir.

Üzün eninə həddi: Üzün bir qulaqdan digər qulağa qədər olan hissəsidir.

Üzün uzununa həddi: Saçın adətən bitdiyi yerlərdən, çənənin son həddinə qədər olan hissəsidir.

Üzün yuyulmasına üzün üzərindəki bütün seyrək (nazik) tüklər, həmçinin ağlıq və izar (yanaqla qulaq arasındakı nahiyə) də daxildir.

Ağlıq: İzar ilə qulaq məməsinin arasındakı hissəyə deyilir.

İzar: Başın daxilinə doğru nüfuz edən qulaq dəliyinə paralel olaraq yerləşən kəllə və üz sümüklərini biri birindən ayıran sümüyün üzərindəki tüklərdir.

Həmçinin üzün yuyulmasına, sıx (qalın) saqqalın görünən zahiri hissəsi və ondan sallanıb aşağı uzanan qismi də daxildir.

Yeddinci addım: Əlləri barmaqların ucundan başlayaraq dirsəklərə qədər üç dəfə yumaq.

Əllərin vacib yuyulmasına - dirsəklərin də yuyulması daxildir.

Səkkizinci addım: İki əllə, qulaqlar da daxil olmaqla, bütün başa bir dəfə məsh çəkmək.

İki əlini başın ön tərəfindən başlayaraq arxasına qədər aparır sonra isə (iki əlini arxadan başladığı yerə qədər) geri qaytarır.

Şahadət barmaqlarını qulaqlarının içinə daxil edir, baş barmaqları ilə qulaqlarının üst (çöl) tərəfinə məsh çəkir. Beləliklə, qulağın həm çölünü, həm də içini məsh etmiş olur.

Doqquzuncu addım: Ayaq barmaqlarından başlayaraq ayaqları topuqlara qədər üç dəfə yumaq. Topuqlar da vacib olan ayaq yuyulmasına daxildir.

Topuqlar: Baldırın aşağı hissəsində çıxıntılı olan iki sümükdür.
Onuncu addım: Müsəlmanın dəstəmazdan sonra bu duanı deməsi müstəhəbdir:

" أشهَدُ أن لا إلهَ إلَّا اللهُ وحدَه لا شريكَ له، وأشهَدُ أنَّ مُحمَّدًا عبدُه ورسولُه، اللَّهمَّ اجعَلْني مِن التَّوَّابِينَ، واجعَلْني مِن المُتطهِّرِينَ"

[Əşhədu ən lə iləhə illə-Llahu vəhdəhu lə şərikə ləhu və əşhədu ənnə Muhəmmədən əbduhu və Rasuluhu. Allahummə ic'alni min ət-təuuabinə və icalni min əl-mutətahhirin]:

«Mən şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yox-dur, O təkdir, Onun şəri-ki yoxdur və şahid-lik edirəm ki, Muhəm-məd Onun qulu və elçisi-dir! Allahım! Məni tövbə edənlərdən et! Və məni təmiz-lənənlərdən et!».

Çünki Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur: "Kim dəstəmaz alıb onu gözəl şəkildə yerinə yetirərsə və sonra: [Əşhədu ən lə iləhə illə-Llahu vəhdəhu lə şərikə ləhu və əşhədu ənnə Muhəmmədən əbduhu və Rasuluhu. Allahummə ic'alni min ət-təuuabinə və icalni min əl-mutətahhirin] «Mən şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yox-dur, O təkdir, Onun şəri-ki yoxdur və şahid-lik edirəm ki, Muham-məd Onun qulu və elçisi-dir! Allahım! Məni tövbə edənlərdən et! Və məni

təmiz-lənənlərdən et!» - deyərsə, Cənnətin səkkiz qapısı onun üçün açılar və istədiyi qapıdan daxil olar". Hədisi Tirmizi rəvayət etmişdir.

Dəstəmaz bu hallarda pozulur:

1- Kiçik və böyük su başına çıxmaq, yel, məni (sperma) və məzi kimi öndən və ya arxadan çıxan şeylər.[1]

2- Ağlın dərin yuxu, huşunu itirmə (özündən getmə), sərxoşluq və ya dəli olma (havalanma) kimi səbəblərdən itməsi.

3- Cünub olmaq, heyz və (nifas) doğuşdan sonra qanaxma kimi, qüsul alınmasını vacib edən bütün hallar.

4- İnsan, kiçik və böyük su başına çıxdıqdan sonra nəcasətdən təmizlənməsi vacibdir. Bu, ya təmiz su ilə edilməli (bu, daha fəzilətlidir), ya da daş, yarpaq, parça və s. kimi nəcasəti aradan qaldıran başqa təmizləyici vasitələrlə edilməlidir. Həmçinin, bu prosesin pak və icazəli bir vasitə ilə təmizliyin baş verməsi üçün ən azı üç dəfə və ya daha çox sürtülərək edilməsi şərtdir.

**Xuflərin və corabların üzərinə məsh çəkmək**

Xuf və corablar ayaqda olduğu halda, ayaqları yumağa ehtiyac olmadan onların üzərinə məsh

---

[1] Məzi (preeyakulyasiya): Ağ rəngli, duru və yapışqan bir mayedir. O, adətən oynaşma zamanı və ya cinsi əlaqəni düşündükdə, şəhvət hissi olmadan və atılmayaraq xaric olur.

çəkmək icazəlidir. Lakin bunun üçün müəyyən şərtlər mövcuddur:

1. Xuf və ya corablar, böyük və kiçik hədəsə görə alınan kamil təharətdən (ayaqlar yuyuduqdan) sonra geyinilməlidir.

2. Onların hər ikisi pak olmalı, nəcis olmamalıdır.

3. Xuf və ya corablar üzərinə məsh çəkmək şəriətdə müəyyən edilmiş vaxt ərzində olmalıdır.

4. Xuf və ya corablar halal yolla əldə edilmiş olmalıdır, oğurluq və ya qəsb edilmiş olmamalıdır.

Xuflar: Ayağa geyilən nazik dəri və buna bənzər şeylərdən olur. Ayaqları tam örtən ayaqqabılar da onun hökmündədir.

Corablar: İnsanların ayaqlarına geyindikləri parça və ya buna bənzər şeylərdən olur. "Şurrab" (çulki) adlanan geyim də onun hökmündədir.

Xuflər üzərinə məsh etməyin hikməti: Xuflər üzərinə məsh etməyin hikməti, qışda və şiddətli soyuqda, həmçinin səfərdə  xufu və corabı çıxardıb ayaqları yumaqda çətinlik çəkən müsəlmanlara asanlıq və yüngüllük təmin etməkdir.

Məsh çəkmək müddəti: Müqim (yəni: evində olan, səfərdə olmayan şəxs): Bir gün və bir gecə (24 saat). Səfərdə olan şəxs üçün isə: Üç gün və üç gecədir (72 saat).

Məsh müddətinin hesablanması, dəstəmaz pozulduqdan sonra corab və ya xuflara ilk məsh çəkildiyi andan başlayır.

Xuf və corablar üzərinə məsh çəkmək qaydası:

1. Əllər isladılır.

2. Əl, ayağın üst tərəfinə (barmaq uclarından başlayaraq baldırın başlanğıcına qədər) çəkilir.

3. Sağ ayağa sağ əl ilə, sol ayağa isə sol əl ilə məsh çəkilir.

Məshi batil edən amillər:

1. Qüsulu vacib edən şeylər.

2. Məsh müddətinin bitməsi.

**Qüsul**

Əgər kişi və ya qadın cinsi əlaqədə olarsa, hətta məni ifraz olmasa da və ya onlardan birindən oyaq və ya yuxuda ikən şəhvətlə məni ifraz olarsa, bu zaman namaz və ya təharət şərt olan digər ibadətləri yerinə yetirmək üçün qüsul almaq onlara vacib olar. Eləcə də, qadın heyzdən və nifasdan təmizləndikdə, namaz qılmaq və ya təharət şərt olan digər ibadətləri yerinə yetirməzdən əvvəl qüsul alması vacibdir.

Qüslun alınma qaydası aşağıdakı kimidir:

Müsəlman bir şəxs qüsl alarkən, mədməda (ağıza su almaq) və istinşəq (buruna su çəkmək) ilə yanaşı, bədəninin hər yerini (quru yer qalmayacaq şəkildə) su ilə yumalıdır. Əgər bütün bədənini su ilə yuyarsa, bu zaman ondan böyük hədəs (qüslu vacib edən hal) qalxmış olar və təmizliyi tamamlanar.

Bundan daha kamil bir qüsul almaq qaydası da mövcuddur ki, bu da Peyğəmbərin, sallallahu aleyhi

va səlləm, etdiyi şəkildədir. Bu qayda aşağıdakı kimidir:

1. Hədəs (dəstəmazsızlıq və ya qüsulsuzluk) halını aradan qaldırmağa niyyət etmək.

2. Bismilləh (Allahın adı ilə) demək, sonra əlləri üç dəfə yumaq, sonra isə övrəti yumaq.

3. Müsəlmanın namaz üçün dəstəmaz aldığı kimi kamil dəstəmaz almaq.

4. Suyu başa üç dəfə tökmək və saçlarının köklərini su ilə yaxşıca islatmaq.

5. Bütün bədəni su ilə yumaq. Əvvəlcə sağ tərəfi sonra sol tərəfi yumaq və əllərini sürtərək suyun bədənin hər tərəfinə çatmasını təmin etmək.

Cənabətli şəxsə qüsul alana qədər aşağıdakılar qadağandır:

1. Namaz qılmaq.

2. Kəbənin ətrafında təvaf etmək.

3. Məsciddə qalmaq. Amma məsciddə oturmamaq şərti ilə oradan keçmək icazəlidir.

4. Mushafa (Qurani-Kərimə) toxunmaq.

5. Quran oxumaq.

**Təyəmmüm (torpaqla/ qumla təmizlənmək)**

Əgər müsəlman dəstəmaz [və ya qüsul] almaq üçün su tapa bilməzsə və ya xəstəlik və s. səbəblərdən dolayı sudan istifadə edə bilməzsə və namazın vaxtının çıxmasından qorxarsa, o zaman torpaqla təyəmmüm etməlidir.

Təyəmmümün qaydası: Təyəmmüm edən kimsə əvvəlcə iki əlini torpağa bir dəfə vurur sonra əllərini yalnız üzünə və əllərinə (sol əlini sağ əlinin üzərinə və sağ əlini də sol əlinin üzərinə) sürtərək məsh edir. Təyəmmüm etmək üçün torpağın pak olması şərtdir.

Təyəmmüm bu hallarda pozulur:

1- Dəstəmazı batil edən hallar təyəmmümü də batil edir.

2- Əgər təyəmmümlə yerinə yetiriləcək ibadətə başlamazdan əvvəl su tapılarsa.

## Namaz

Uca Allah, müsəlmana gündüz və gecə ərzində beş vaxt namaz qılmağı vacib etmişdir. Bu namazlar: fəcr, zöhr, əsr, məğrib və işa namazlarıdır.

### Namaza hazırlıq

Namaz vaxtı daxil olduqda, müsəlman kiçik hədəsdən və böyük hədəsi varsa böyük hədəsdən təmizlənir.

Böyük hədəs: Müsəlmana qüsul almağı vacib edən haldır.

Kiçik hədəs: Müsəlmana dəstəmaz almağı vacib edən haldır.

Müsəlman, təmiz paltarda, nəcasətdən təmiz olan bir məkanda və övrət yeri örtülü halda namaz qılır.

Müsəlman, namaz vaxtı daxil olduqda, namaza layiq paltarlar geyinərək bəzənir və onunla bədənini örtür. Kişinin namazda göbək ilə diz arasında olan hər hansı bir hissəni açması icazəli deyildir.

Qadına namazda üz və əllər istisna olmaqla, bütün bədənini örtməsi vacibdir.

Müsəlman namaz qılarkən namaza aid olmayan sözlər söyləməməlidir. Camaat namazında imamın qiraətinə qulaq asar və namaz əsnasında sağa-sola yönəlməz. Əgər namaza aid sözləri əzbərləyə bilmirsə, namaz bitənə qədər Allahı zikir edib, Ona təsbih edər (Yəni: "Subhənəllah, Əlhəmdulilləh, Lə iləhə illəllah, Allahu Əkbər" - deyər). Lakin bununla yanaşı o, həm namazı, həm də namaza xas olan sözləri öyrənməyə tələsməlidir.

Allahın izni ilə namazı düzgün şəkildə qılmaq üçün aşağıdakı addımlara tabe oluruq və onlara riayət edirik:

Birinci addım: Qılmaq istədiyim fərz namazı üçün niyyət etmək. Niyyətin yeri qəlbdir (dil ilə deyilməz).

Dəstəmaz aldıqdan sonra qibləyə tərəf yönəlirəm, əgər gücüm çatırsa namazı ayaq üstü qılıram.

İkinci addım: Əllərimi çiyinlər bərabərində qaldırıram və namaza başlamaq niyyəti ilə: "Allahu əkbər" - deyirəm.

Üçüncü addım: Sünnəddə varid olan "açılış" (istiftəh) duasını oxuyuram. Bu dualardan biri də aşağıdakıdır:

(سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، وَتَبَارَكَ اسْمُكَ، وَتَعَالَى جَدُّكَ، وَلَا إِلَهَ غَيْرَكَ).

(سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، وَتَبَارَكَ اسْمُكَ، وَتَعَالَى جَدُّكَ، وَلَا إِلَهَ غَيْرَكَ)

[Subhənəkə Allahummə və bihəmdi-kə və təbərakəs-mukə və təalə cəddukə və lə iləhə ğayrukə]:

"Allahım! Sən pak və müqəddəssən. Sənə həmd olsun. Sənin adın mübarək, əzəmə-tin isə ucadır. Səndən başqa haqq məbud yoxdur!".

Dördüncü addım: Lənətlənmiş şeytanın şərindən Allaha sığınaraq deyirəm:

(أعوذُ باللهِ من الشيطان الرجيم).

(أعوذُ باللهِ مِن الشَّيطانِ الرَّجيم)

[Əuzu billəhi minəş-şeytanir-ra-cim]:

"Lənətlənmiş şeytandan Allaha sığını-ram!".

Beşinci addım: Hər rükətdə Fatihə sürəsini oxuyuram. Fatihə surəsi belədir:

﴿الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ * الرَّحْمَنِ الرَّحِيمِ * مَالِكِ يَوْمِ الدِّينِ * إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ * اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ * صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ﴾.

﴿الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ)

[Əlhəmdu lilləhi Rabbil-aləmin]:

"Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur".

(الرَّحْمَنِ الرَّحِيمِ)

[ər-Rahmənir-Rahim]:

"Mərhəmətli və Rəhmli olana".

﴿مَالِكِ يَوْمِ الدِّينِ﴾

[Məliki yəumid-din]:

"Din (haqq-hesab) gününün Sahibinə".

﴿إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ﴾

[İyyəkə nə'budu uə iyyəkə nəstə'in]:

"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik".

﴿اهدِنَــــا الصِّرَاطَ المُستَقِيمَ﴾

[İhdinəs-siratal-mustəqim]:

"Bizi doğru yola yönəlt".

﴿صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ﴾

[Sıratal-ləzinə ən-'amtə 'aləyhim 'ğayril-mə'ğdubi 'aləyhim uə lə-ddallin]:

"Nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların (yoluna) deyil!".

(Fatihə surəsini oxuyub qurtardıqdan) sonra «آمين» [Əmin].

Yəni: "Allahım cavab ver!" - deyirəm.

Hər namazda yalnız birinci və ikinci rükətdə Fatihə surəsindən sonra Qurani-Kərimdən asan gələn hər hansısa bir surəni oxuyuram. Bu, vacib deyildir, lakin bunu etməkdə böyük əcr vardır.

Altıncı addım: "Allah Əkbər" deyib, belim düz olana qədər əyilərək və əllərimi barmaqlarım aralı şəkildə dizlərimin üstünə qoyaraq rüku edirəm. Sonra rükuda üç dəfə: (سبحان ربي العظيم) - [Subhənə rabbiyəl-azim]:

"Əzəmətli Rəbbim pak və müqəddəsdir!" - deyirəm.

Yeddinci addım: Rükudan qalxaraq:

(سمع الله لمن حمده)

[Səmi Allahu limən həmidəh] -

"Allah Ona həmd edəni eşitdi!" - zikrini deyir və əllərimi çiyinlərlə eyni səviyyədə qaldırıram. Ayaq üstə bədənim tam düz olduqdan sonra: (ربنا ولك الحمد)

[Rabbənə və ləkəl-həmd] -

"Ey Rəb-bi-miz! Sənə həmd olsun!"- deyirəm.

Səkkizinci addım: (Allahu Əkbər) deyirəm və iki əl, iki diz, iki ayaq, alın və burun üzərində səcdə edirəm və səcdəmdə üç dəfə: (سبحان ربي الأعلى) -

[Subhənə Rabbiyəl-Əla] -

"Ən Uca Rəbbim pak və müqəddəsdir!" - deyirəm.

Doqquzuncu addım: (Allahu Əkbər) deyirəm və səcdədən qalxaraq belimi düz tutub, sol ayağımı yerə sərib üzərində otururam, sağ ayağımı isə dik tutub üç dəfə:

(رب اغفر لي) - [Rabbiğ-fir li] - "Rəbbim, məni bağışla!" - deyirəm.

Onuncu addım: (Allahu Əkbər) deyirəm və birinci səcdə kimi ikinci dəfə səcdə edirəm.

On birinci addım: Səcdədən: (Allahu Əkbər) deyərək ayaqüstə düz durana qədər qalxıram və birinci rükətdə etdiklərimi namazın digər rükətlərində də edirəm.

Zöhr, əsr, məğrib və işa namazlarında ikinci rükətdən sonra birinci təşəhhüdü oxumaq üçün otururam. Birinci təşəhhüd belədir:

(التحيات لله والصلوات والطيبات، السلام عليك أيها النبي ورحمة الله وبركاته، السلام علينا وعلى عباد الله الصالحين، أشهد أن لا إله إلا الله، وأشهد أن محمدًا عبده ورسوله)

«التحيات لله والصلوات والطيبات، السلام عليك أيها النبي ورحمة الله وبركاته، السلام علينا وعلى عباد الله الصالحين، أشهد أن لا إله إلا الله وأشهد أن محمدًا عبده ورسوله» - [ət-Təhiyyətu lilləhi, vəs-saləvətu, vət-tayyibətu, əs Sələmu aleykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərakətuhu, əs Sələmu aleynə və alə ibədil-ləhis-Sali-hin. Əşhədu əllə iləhə illəllahu və əşhədu ənnə Muhəmmədən əbduhu və rasuluhu] - "Salamlar, dualar və gözəl şeylər Allaha aiddir. Ey peyğəmbər, sənə Allahın salamı, mərhəməti və bərəkəti olsun! Bizə və Allahın əməlisaleh qul-larına salam ol-sun! Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və şahid-lik edirəm ki, Muham-məd Onun qulu və elçisi-dir". Bundan sonra üçüncü rükətə qalxıram.

Hər namazın sonuncu rükətində, son təşəhhüdü oxumaq üçün otururam. Son təşəhhüd (salavatla birlikdə) belədir:

(التحيات لله والصلوات والطيبات، السلام عليك أيها النبي ورحمة الله وبركاته، السلام علينا وعلى عباد الله الصالحين، أشهد أن لا إله إلا الله، وأشهد أن محمدًا عبده ورسوله، اللهم صلِّ على محمد وعلى آل محمد، كما صليت على إبراهيم وعلى آل إبراهيم، إنك حميد مجيد. اللهم بارك على محمد وعلى آل محمد، كما باركت على إبراهيم وعلى آل إبراهيم، إنك حميد مجيد)

(التحيات لله والصلوات والطيبات، السلام عليك أيها النبي ورحمة الله وبركاته، السلام علينا وعلى عباد الله الصالحين، أشهد أن لا إله إلا الله وأشهد أن محمدًا عبده ورسوله، اللهم صلِّ على محمد وعلى آل محمد، كما صليت على إبراهيم وعلى آل إبراهيم، إنك حميد مجيد .اللهم بارك على محمد وعلى آل محمد، كما باركت على إبراهيم وعلى آل إبراهيم، إنك حميد مجيد) - [ət Təhiyyətu lilləhi, və-s-saləvatu, və-t-tayyibətu, əs-Sələmu aleykə əyyuhə-n-nəbiyyu və rahmətullahi və bərakətuhu, əs-Sələmu aleynə və alə ibədi-l-ləhi-s-Salihin. Əşhədu əllə iləhə illəllahu va əşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu. Allahummə salli alə Muhəmmədin və alə əəli Muhəmməd, kəmə salleytə alə İbrahimə və alə əli İbrahimə, innəkə həmidun məcid. Allahummə bərik alə Muhəmmədin və alə əəli Muhəmməd, kəmə bəraktə alə İbrahimə və alə əli İbrahimə, innəkə həmidun məcid] -

"Salamlar, dualar və gözəl şeylər Allaha aiddir. Ey Peyğəmbər, sənə Allahın salamı, mərhəməti və bərəkəti olsun! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və şahidlik

edirəm ki, Muhəmməd Onun qulu və elçisidir". Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!".

On ikinci addım: Bu duanı oxuduqdan sonra namazdan çıxmağı niyyət edərək başımı sağ tərəfə çevirib:

(السَّلام عليكم ورحمة الله) - [əs-Sələmu aleykum və rahmatullah] -

"Allahın salamı və rəhməti sizin üzərinizə olsun" - deyirəm.

Sonra başını sol tərəfə çevirib: (السَّلام عليكم ورحمة الله) -

[əs-Sələmu aleykum və rahmatullah] -

"Allahın salamı və rəhməti sizin üzərinizə olsun" - deyirəm və bununla da namazı tamamlamış oluram.

## Müsəlman qadının hicabı

Uca Allah buyurur:

﴿ يَا أَيُّهَا النَّبِيُّ قُلْ لِأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاءِ الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِنْ جَلَابِيبِهِنَّ ذَٰلِكَ أَدْنَىٰ أَنْ يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَ وَكَانَ اللَّهُ غَفُورًا رَحِيمًا﴾

"Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, (naməhrəm yanında

bütün bədənlərini örtən) örtükləri ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhmlidir". (Əhzab 33 surəsi, ayə 59).

Uca Allah müsəlman qadına, yaşadığı ölkədə adət olunan geyimlə, hicab geyinməyi, həmçinin övrətini və bütün bədənini naməhrəm kişilərdən örtməyi vacib etmişdir. Qadın hicabını yalnız öz əri və yaxud əbədi olaraq evlənməsi haram olan kəslərin qarşısında, yəni məhrəmləri qarşısında aça bilər. Onlar isə bu şəxslərdir: (Ata, atanın atası, atanın atasının atası və bu şəkildə şəcərə üzrə yuxarı doğru gedən bütün atalar. Oğul, oğulun oğlu, oğulun oğlunun oğlu və bu şəkildə şəcərə üzrə aşağı doğru gedən bütün oğullar. Əmilər. Dayılar. Qardaş. Qardaş oğlu. Bacı oğlu. Ananın əri. Ərin atası, atasının atası və bu şəkildə şəcərə üzrə yuxarı doğru gedən ərin ataları. Ərin oğlu, oğlunun oğlu və bu şəkildə şəcərə üzrə aşağı doğru gedən ərin oğulları. Süd qardaşı. Süd verən qadının əri. Nəsəb (nəsil) yoluyla haram olan şəxslər, süd yoluyla da haram olur).

Müsəlman qadın geyimində bir sıra qaydalara riayət etməlidir.

Birinci: Geyim qadının bütün bədənini tam şəkildə örtməlidir.

İkinci: Əgər qadın naməhrəm kişilərin yanında olarsa, o zaman geyimi bəzək və zinət məqsədi ilə geyindiyi paltarlardan olmamalıdır.

Üçüncü: Qadının geyimi bədənini göstərən şəffaf geyim olmamalıdır.

Dördüncü: Qadının geyimi geniş olmalı, bədəninin bir hissəsini vəsf edəcək qədər dar olmamalıdır.

Beşinci: Əgər qadın naməhrəm kişilərin yanından keçəcəksə, paltarında onların hiss edə biləcəyi ətir qoxusu olmamalıdır.

Altıncı: Qadının geyimi kişi geyiminə oxşamamalıdır.

Yeddinci: Qadının geyimi qeyri-müsəlman qadınların dini mərasimlərində (ibadətlərində) və ya bayramlarında geyindikləri paltarlara oxşamamalıdır.

Səkkizinci: Qadının geyimi (diqqət çəkmək və özünü fərqləndirmək məqsədi ilə geyilən) şöhrət paltarı olmamalıdır.

## Möminin bəzi sifətləri:

Uca Allah buyurur:

﴿ إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللَّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ﴾

"Möminlər o kəslərdir ki, Allah anıldığı zaman qəlbləri qorxudan titrəyər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər". (Ənfal 8 surəsi, ayə 2).

- Sözündə doğrudur, yalan danışmaz.
- Əhdinə və vədinə vəfalıdır.
- Mübahisə etdikdə həddi aşmaz.

- Əmanəti sahibinə qaytarar.

- Özünə istədiyi bir şeyi, müsəlman qardaşı üçün də istəyər.

- Səxavətlidir.

- İnsanlara yaxşılıq edər.

- Qohumluq əlaqələrini birləşdirər.

- Uca Allahın qədərinə razı olar, xoş halında Ona şükr edər, sıxıntı halında isə səbr edər.

- Həyalıdır.

- Məxluqata qarşı mərhəmətlidir.

- Qəlbi kin-küdürətdən, əzaları isə başqalarına qarşı haqsızlıq etməkdən salamatdır.

- İnsanları bağışlayar.

- Sələm yeməz və sələmlə məşğul olmaz.

- Zina etmir.

- Spirtli içki içmir.

- Qonşularına yaxşılıq edər.

- Zülm və xəyanət etməz.

- Oğurluq və hiyləgərlik etməz.

- Valideynləri hətta qeyri-müsəlman olsalar belə, onlar ilə gözəl davranar və yaxşı işlərdə onlara itaət edər.

- Övladlarını gözəl əxlaqla tərbiyə edər, onlara şəri vacibatları əmr edər, rəzalət və haram olan şeylərdən çəkindirər.

- Qeyri-müsəlmanların dini işlərində və ya onlara xas adət-ənənələrində onlara bənzəməz.

- Allaha tövbə edər və öz nöqsanları və günahlarına görə Allahdan bağışlanma diləyər.

## Müsəlmanın əqidəsində mühüm qaydalar

1. Allah bizim Rəbbimizdir. Ondan başqa haqq ilah yoxdur. Ondan başqa Rəbb yoxdur və Ondan savayı haqq məbud yoxdur. Ona bənzər heç bir şey yoxdur. Heç bir şey Onu aciz buraxa bilməz və O, eşidən və görəndir.

2. Uca Allah, ucalıqdadır və bütün məxluqatın üzərindədir və onlardan ayrıdır. Onun ucalığı hər cəhətdəndir: zatının ucalığı, izzətinin ucalığı və qüdrətinin ucalığı. O, hər şeyi əhatə edəndir.

3. Biz, Uca Allahın özü üçün və peyğəmbəri Muhəmmədin, sallallahu aleyhi va səlləm, Onun üçün isbat etdiyi adları və sifətləri isbat edirik və Uca Allahın özündən və peyğəmbərinin, sallallahu aleyhi va səlləm, Ondan inkar etdiyi adları və sifətləri isə inkar edirik.

4. Uca Allah duaları qəbul edir, ehtiyacları ödəyir, hər şeyə sahibdir, zərər və fayda vermək yalnız Ona məxsusdur və qulun Allahdan bir göz qırpımı belə ehtiyacsız olması mümkün deyil. Müsəlmanın Uca Allahdan başqasına dua, namaz, nəzir, qurban, qorxu, ümid, təvəkkül və digər zahiri və batini ibadətlərin heç bir növünü sərf etməsi icazəli deyildir. Kim hər hansısa bir ibadəti Uca Allahdan başqasına sərf edərsə, o, Allaha şərik qoşmuş olar.

5. Ən əzəmətli günah və günahların ən böyüyü Allaha şərik qoşmaqdır. Kim Allaha şərik qoşaraq

ölərsə, artıq Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer isə Cəhənnəmdir. Əgər qul şirk üzərində ölərsə və bu günahdan tövbə etməzsə, bu, Allahın bağışlamadığı bir günahdır.

6. Quldan yan keçəcək şey ona heç vaxt baş verməyəcəkdir, ona baş verəcək şey isə heç vaxt ondan yan keçməyəcəkdir. Müsəlman Uca Allahın qəza və qədərinə iman gətirməli, Allahın təqdirinə razı olmalı və hər bir halında Rəbbinə həmd-səna etməli və Ona şükr etməlidir.

7. Muhəmməd, sallallahu aleyhi va səlləm, bizim peyğəmbərimiz, bəşəriyyətin ən fəzilətlisi və peyğəmbərlərin sonuncusudur. O, Qiyamət günü şafaət edən və şafaəti qəbul edilən şəxsdir. Uca Allah İbrahimi, aleyhi-ssələm, Özünə dost (xəlil) seçdiyi kimi, Onu da də Özünə dost seçmişdir.

8. Kitabımız Qurani-Kərimdir. Möcüzəvi kitabdır. Doğruluğuna şübhə yoxdur. Tilavəti ilə ibadət ediləndir. Uca Allah onu, mələklərin ən fəzilətlisi olan Cəbrayil, aleyhi-ssələm, vasitəsilə peyğəmbərimiz Muhəmmədə, sallallahu aleyhi va səlləm, göndərmişdir. Uca Allah onu təhrifdən və dəyişiklikdən qorumuşdur. Uca Allah bu barədə belə buyurur:

﴿ إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ﴾

"Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və Biz də onu qoruyacağıq". (Hicr 15 surəsi, ayə 9).

9. İnsanlar arasında Allaha ən yaxın olanlar, Ona ən çox itaət edənlər və Onun şəriətinə ən çox tabe olanlardır. Heç bir ərəbin əcəm (ərəb olmayan) üzərində, əcəmin də ərəb üzərində, ağdərilinin qaradərili üzərində, qaradərilinin də ağdərili üzərində - təqvadan başqa heç bir üstünlüyü yoxdur. İnsanlar Adəmdəndir, Adəm isə torpaqdandır. Uca Allah belə buyurur:

﴿ إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ﴾

"Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız (Ondan) ən çox qorxanınızdır". (Hucurat 49 surəsi, ayə 13).

10. Müsəlman, hörmətli və əməlləri yazan mələklərə inanır, onların mövcud olduğuna və yaradılmış qullar olduqlarına iman gətirir. Uca Allah onları nurdan yaratmışdır. Mələklər, Uca Allahın yaratdığı varlıqlardan bir varlıqdır. Bu mələklərdən biri, vəhyi nazil etməklə vəzifələndirilmiş Cəbraildir. Digəri, yağış endirməklə vəzifələndirilmiş Mikayıldır. Başqa biri sura üfürməklə vəzifələndirilmiş İsrafildir. Başqa biri isə ölüm anında ruhları almaqla vəzifələndirilmiş ölüm mələyidir.

11. Müsəlman, Qiyamət saatının əlamətlərinə, Məsih Dəccalın çıxmasına, axır zamanda Məryəm oğlu İsanın, aleyhi-ssələm, səmadan enməsinə və günəşin batdığı yerdən çıxmasına iman gətirir.

12. Müsəlman, qəbr əzabının ona layiq olanlar üçün və qəbir nemətinin də ona layiq olanlar üçün haqq olduğuna inanır. Həmçinin qəbrdə insanın Rəbbi, dini və peyğəmbəri haqqında Münkər və Nəkir adlı iki mələk tərəfindən sorğu-sual ediləcəyinə, qəbrin Cənnət bağlarından bir bağ ya da Cəhənnəm çuxurlarından bir çuxur olacağına iman gətirir.

13. Müsəlman, Qiyamət günü insanların dirildiləcəyinə və etdikləri əməllərə görə mükafatlandırılacaqlarına və ya cəzalandırılacaqlarına inanır. O, həmçinin Cənnət və Cəhənnəmin yaradıldığına və əbədi olaraq yox olmayacağına iman gətirir.

14. Sehr, Allaha qarşı küfrdür. Onu öyrənmək, sehrbazların və falçıların yanına getmək qadağandır. Müsəlman nə kahinə, nə də baxıcıya inanmaz. Kim onlara inanarsa, Muhəmmədə, sallallahu aleyhi va səlləm, nazil olan vəhyə küfr etmiş olar.

15. Müsəlman, rəsulu-Llahın, sallallahu aleyhi va səlləm, səhabələrini sevir, onları sevənləri də sevir və onlara nifrət edənlərə isə nifrət edir. Çünki onları sevmək din və ehsandır, onlara nifrət etmək isə küfr və nifaqdır. Rəsu-Lullah, sallallahu aleyhi va səlləm, belə demişdir: "Mənim səhabələrimi söyməyin". (Hədisi Müslim rəvayət etmişdir). Və səhabələrdən, Allah onların hamısından razı olsun,

hər hansı birinə dil uzadan və ya onların dərəcəsini kiçildən hər bir şəxs azğın və bidətçidir.

16. Müsəlman, rəsulu-Llahdan, sallallahu aleyhi va səlləm, sonra xilafətə ilk olaraq Əbu Bəkr əs-Siddiqin, Allah ondan razı olsun, layiq olduğunu qəbul edir. Bu da onun bütün ümmət üzərində üstünlüyü və fəzilətinə görədir. Sonra Ömər ibn əl-Xəttabın, Allah ondan razı olsun, daha sonra Osman ibn Əffanın, Allah ondan razı olsun, və sonra isə Əli ibn Əbu Talibin, Allah ondan razı olsun, xilafətə layiq olduğunu qəbul edir. Onlar, Raşidi Xəlifələr və doğru yol imamlarıdır.

17. İbadətlər təuqifidir (yəni: yalnız şəriətlə müəyyənləşdirilmiş şəkildə olmalıdır). Ona görə də Uca Allaha yalnız Qurani-Kərimdə və ya rəsulu-Llahın, sallallahu əleyhi və səlləm, sünnəsində sabit olan bir ibadətlə ibadət etmək icazəlidir. Peyğəmbərin, sallallahu əleyhi və səlləm, vəfatından sonra insanların ortaya çıxartdığı və peyğəmbərin yolu üzərində olmayan hər bir ibadət bidət sayılır və rədd olunur. Peyğəmbər, sallallahu əleyhi və səlləm, bu barədə belə buyurmuşdur: "Kim bizim bu işimizə onda olmayan bir yenilik gətirərsə, o rədd olunar". (Hədisi Buxari rəvayət etmişdir).

18. İbadətin qəbul olunması iki əsas şərtdən asılıdır:

Birincisi: İbadət ixlasla (yalnız Allahın razılığını qazanmaq məqsədilə, və tövhid üzərində)

edilməlidir. İkincisi: İbadət peyğəmbərin, sallallahu aleyhi va səlləm, sünnəsinə uyğun olmalıdır. Əgər ibadət ixlasla edilməzsə və ya peyğəmbərin, sallallahu əleyhi va səlləm, sünnəsinə uyğun olmazsa, o ibadət qəbul olunmaz.

## Xoşbəxtliyim dinim İslamdadır

Uca Allah buyurur:

﴿مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ﴾

"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq". (Nəhl 16 surəsi, ayə 97).

Müsəlmanın qəlbinə sevinc, genişlik və səadət bəxş edən ən böyük amillərdən biri də onun, diriləri, ölüləri və bütləri vasitə etmədən Rəbbi ilə birbaşa əlaqə qurmasıdır. Uca Allah Qurani-Kərimdə qullarına daima yaxın olduğunu, onları eşidib dualarını qəbul etdiyini xəbər vermişdir. Uca Allah bu barədə belə buyurur:

﴿وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ فَلْيَسْتَجِيبُوا لِي وَلْيُؤْمِنُوا بِي لَعَلَّهُمْ يَرْشُدُونَ﴾

"Əgər qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən (onlara) yaxınam, Mənə dua edənin duasını qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, bəlkə (bununla) doğru yola yönəlsinlər". (Bəqərə 2 surəsi, ayə 186). Uca Allah

bizə, Ona dua etməyi əmr etmiş və bunu, müsləmanı Rəbbinə yaxınlaşdıran ən əzəmətli ibadətlərdən biri etmişdir. Uca Allah bu barədə belə buyurur:

﴿ وَقالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ داخِرِينَ ﴾

Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də duanıza cavab verim. Mənə ibadət etməyə təkəbbürlük göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər". (Ğafir 40 surəsi, ayə 60). Saleh müsəlman daima Rəbbinə ehtiyac duyur, daima Onun qarşısında dua edir və saleh ibadətlərlə Ona yaxınlaşır.

Uca Allah bizi bu kainatda əbəs yerə deyil, əksinə, böyük bir hikmət üçün yaratmışdır. Bu hikmət yalnız heç bir şəriki olmayan Ona ibadət etməkdir. O, bizim üçün fərdi və sosial həyatımızın bütün sahələrini tənzimləyən rəbbani, əhatəli bir Dini qanun qoymuşdur. Uca Allah bu ədalətli şəriət vasitəsilə  bizim üçün həyati önəm daşıyan beş amili: dinimizi, canımızı, namusumuzu, ağlımızı və malımızı qorumuşdur. Kim şəriətin əmrlərinə tabe olub, haramlardan uzaq olaraq yaşayarsa, o, həyati önəm daşıyan bu beş amili qorumuş olar və heç şübhəsiz, xoşbəxt və arxayın bir həyat içində yaşayar.

Müsəlmanın Rəbbi ilə olan bağlılığı dərin olub, onda arxayınlıq və mənəvi rahatlıq, sakitlik,

güvənlik və sevinc hissi oyadır, Rəbbinin mömin qulu ilə bərabər olmasını, ona qayğısını və dostluğunu hiss etdirir. Uca Allah buyurur:

﴿اللَّهُ وَلِيُّ الَّذِينَ آمَنُوا يُخْرِجُهُمْ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ﴾

"Allah iman gətirənlərin dostudur, onları zülmətlərdən nura çıxarar". (Bəqərə 2 surəsi, ayə 257).

Bu əzəmətli əlaqə, insanın Rəhmana ibadətdən zövq almasına, Onunla görüşə can atmasına və imanın şirinliyini hiss edərək qəlbini səadət səmasında dövr etdirən mənəvi bir haldır.

Bu elə bir şirinlikdir ki, yalnız saleh əməllər etməklə və günahlardan çəkinməklə bu şirinliyi dadan kimsələr onun ləzzətini təsvir edə bilər. Elə bu səbəbdən Muhəmməd peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

(ذاق طعم الإيمان من رضي بالله ربًا وبالإسلام دينًا وبمحمد رسولًا)

"Rəbb olaraq Allahdan, din olaraq İslamdan, peyğəmbər olaraq Muhəmməddən razı olan kimsə imanın ləzzətini dadmışdır". Hədisi Müslim rəvayət etmişdir.

Bəli, əgər insan özünün daima Yaradanının hüzurunda oluğunu dərk edərsə, Onu gözəl adları və kamil sifətləri ilə tanıyarsa, Ona, sanki Onu görürmüş kimi ibadət edərsə və bu ibadətində ixlaslı olub, bununla yalnız Uca Allahın razılığını istəyərsə, o, dünyada gözəl və xoşbəxt həyat yaşayar, Axirətdə isə gözəl aqibətə nail olar.

Hətta möminin dünyada başına gələn müsibətlər belə, yəqinliyin sərinliyi, Uca Allahın qədərinə razı qalmaq və istər xeyir, istərsə də şər olsun, Allahın bütün qədərlərinə həmd etmək, həmçinin onlara tam razı olmaq - sayəsində aradan qalxar.

Bir müsəlmanın səadətinin və mənəvi rahatlığının artması üçün diqqət yetirməli olduğu mühüm xüsuslardan biri də, Uca Allahı çoxlu zikr etməsi və Qurani-Kərimi mütəmadi olaraq oxumasıdır. Uca Allah bu barədə belə buyurur:

﴿الَّذِينَ آمَنُوا وَتَطْمَئِنُّ قُلُوبُهُمْ بِذِكْرِ اللَّهِ أَلَا بِذِكْرِ اللَّهِ تَطْمَئِنُّ الْقُلُوبُ﴾

"Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə rahatlıq tapar". (Rad 13 surəsi, ayə 28). Müsəlman, Uca Allahı nə qədər çox zikr edərsə, nə qədər çox Quran oxuyarsa, onun Allaha olan bağlılığı bir o qədər artar, nəfsi saflaşar və imanı daha da güclənər.

Həmçinin müsəlman, Uca Allaha bəsirət üzərində ibadət etməsi üçün dinini doğru mənbələrdən öyrənməyə həris olmalıdır. Buna görə də peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

(طلب العلم فريضة على كل مسلم)

"Elm öyrənmək hər bir müsəlmana vacibdir". Hədisi İbn Macə rəvayət etmişdir. Eləcə də müsəlman, onu yaradan Uca Allahın əmrlərinə, onların hikmətini bilib-bilməməsindən asılı

olmayaraq, tam təslim olub boyun əyməlidir. Uca Allah bu barədə müqəddəs Kitabında belə buyurur:

﴿وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَنْ يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ وَمَنْ يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالًا مُبِينًا﴾

"Allah və Onun rəsulu bir iş haqqında hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadının öz işlərində başqa bir yol seçmək ixtiyarı yoxdur. Allaha və Onun rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azmışdır". (Əhzab 33 surəsi, ayə 36).

Allahın salatı və salamı peyğəmbərimiz Muhəmmədin, onun ailəsinin və bütün səhabələrinin üzərinə olsun!

# Mündəricat

Müsəlman üçün faydalı qısa məlumat ........ 2
Müqəddimə ........ 2
İnsanların yaradılmasının hikməti ........ 3
Mənim rəbbim Allahdır ........ 4
Uca Allahın ən gözəl adlarından bəziləri aşağıdakılardır: ........ 5
Peyğəmbərim Muhəmməddir, sallallahu aleyhi va səlləm. ........ 6
Muhəmməd, sallallahu aleyhi va səlləm, bəxş edilmiş rəhmətdir ........ 7
Muhəmməd peyğəmbərin (sallallahu aleyhi va səlləm) sifətlərindən bəziləri aşağıdakılardır: ........ 10
Qurani-Kərim Rəbbimin kəlamıdır ........ 10
Mənim dinim İslamdır ........ 12
Birinci mərtəbə: İslam ........ 12
İslamın rukunları (əsasları) ........ 12
Birinci rükun: Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət verməkk. ........ 13
İkinci rükun: Namaz qılmaq. ........ 13
Üçüncü rükun: Zəkat vermək. ........ 14
Dördüncü rükun: Ramazan ayı oruc tutmaq. ........ 15
Beşinci rükun: Allahın Haram evini (Kəbəni) həcc etmək. ........ 16
İkinci mərtəbə: İman ........ 16
İmanın rükunları ........ 17
Birinci rükun: Allaha iman ........ 18
İkinci rükun: Mələklərə iman. ........ 19
Üçüncü rükun: Kitablara iman. ........ 19
Dördüncü rükun: Elçilərə iman. ........ 21
Beşinci rükun: Axirət gününə iman. ........ 22

Altıncı rükun: Qədərin xeyrinə və şərrinə iman........................ 23
Üçüncü mərtəbə: İhsan.................................................................... 24
Təharət (səri təmizlik)...................................................................... 24
Dəstəmaz .......................................................................................... 27
Xuflərin və corabların üzərinə məsh çəkmək............................. 30
Qüsul ................................................................................................ 32
Təyəmmüm (torpaqla/ qumla təmizlənmək) ............................ 33
Namaz............................................................................................... 34
Namaza hazırlıq .............................................................................. 34
Müsəlman qadının hicabı ............................................................. 41
Möminin bəzi sifətləri:.................................................................... 43
Müsəlmanın əqidəsində mühüm qaydalar ................................. 45
Xoşbəxtliyim dinim İslamdadır..................................................... 50

az272v1.0 - 03/09/2026